BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2007

# ƏLFİ QASIMOVUN ƏDƏBİ MÜHİTİ

**S.Ş.QULİYEVA**
*Bakı Dövlət Universiteti*

İctimai həyat kimi, ədəbiyyat da öz inkişafında bir-birindən fərqli, bənzərsiz mərhələlər keçmişdir. Tarixə, klassik irsə, ənənələrə sadiq qala-qala hər bir dövrün, hər bir əsrin özünəməxsus sosial-mənəvi şəraiti, mühiti, ədəbiyyatı, mədəniyyəti, qanunauyğun inkişaf xətləri və mərhələləri olmuşdur. Sosial-mənəvi şərait və mühit hər bir əsrdə zaman-zaman ədəbiyyat üçün həyat materialı, mövzu olmuş, bəhs olunan həyatın xarakterini, əxlaq və şüur tərzini əks etidirmişdir. Bu baxımdan sovet ədəbiyyatı adı ilə yaranan və yetmiş ilə qədər yaşayan, fəaliyyət göstərən ədəbiyyat da, ayrıca bir mərhələ, ictimai bədii şüur forması, həyata, cəmiyyətə, insana ayrıca baxışlar sisteminin ifadəsidir. Bu mərhələ nəinki tam halda, eyni zamanda ayrı-ayrı illər, onilliklər baxımından da fərqli xətlərə, ictimai-siyasi bədii meyl və istiqamətlərə malikdir. Yaxın keçmişə çevrilən ədəbi proseslərdən aydın olduğu kimi, sovet dövrü ədəbiyyatında təbiətə, cəmiyyətə, insana münasibətində, heç şübhəsiz ki, uğurları az olmamışdır. Milli dəyərləri qiymətləndirmək, soy kökünə qayğı və məhəbbət, tarixə, ana dilinə sağlam münasibət məsələlərində müəyyən maneələrə rast gəlsə də, bu ədəbiyyat öz ədəbi-bədii mərifət və ləyaqətini əsasən qoruyub saxlamış, təbii olaraq öz zəmanəsinin tələb və prinsiplərinə cavab verməyə çalışmışdır. Ona görə də müasir insana, bir növ «sosializm realizmi»nə xas olan bir meyl yaranmışdır. Tarixə müraciətdə bəzən də müasir tematika axtarışları və seçmələrində tez-tez milli dəyərlərə, Azərbaycançılığa, keçmişə, klassik ənənələrə qayğı və hörmətlə yanaşı, təbliğ və tərənnüm meylləri olmuşdur. Bu meyl yalnız ədəbi fakt, sənət, məlumat və materiallarla yox, mövqelərdə, düşüncələrdə və elmi-nəzəri münasibətlərdə özünü göstərmiş, sosialist müasirliyi ilə yanaşı, müəyyən qədər milli gerçəkliyi, milli reallığı təmin etmişdir.

İndi tələb tam başqadır. Müasir, yeni ədəbi proses müstəqil, demokratik Azərbaycan Respublikasının tələb və prinsiplərinə əsaslanır. Ədəbi-bədii dilin bütün sənəd və materialları əsasında alınan şərt dilin inkişaf səviyyəsini özündən əvvəlki ədəbi proseslərdən fərqli idraka təsir dairəsini, ədəbi-bədii xətləri, təmayülləri, sənətkar mövqeyini üzə çıxarır, növbəti ədəbi mərhələyə istiqamət verir, məkan, zaman əhatəsini nəzərə almaq şərti ilə janr və tematika bolluğundan asılı olmayaraq hər bir tarixi dövrün vəhdət və sistem bütövlüyünü, ədəbi hadisələrini, ədəbi məhsullarını, ümumən, "ədəbi proses"lərin yeni dövrün prinsipləri, tələb və ehtiyacları əhatəsində, filoloji fikrin son yeni uğurları səviyyə-

sində təhlil və şərh edir. Bu axtarışlarda 20-ci illərdən 80-ci illərə qədər yaranan, yaşayan, fəaliyyət və təsir göstərən ədəbi proseslər bir-biriləri ilə ənənəvi, milli və sosial кöкlərlə bağlı, əlaqə və vəhdətdə olsalar da, təкrar və eyni deyillər.

Artıq 50-ci illərdən etibarən cəmiyyətin inкişafında əmələ gələn dəyişmələr, eləcə də zamanın, müasir gerçəкliyin tələb etdiyi yeni meyl və tendensiyalar sənətə - ədəbiyyata əhəmiyyətli dərəcədə təsir göstərdi, sanкi onun istiqamətlərini müəyyən etdi. Belə кi, ədəbiyyat tədricən "formaca milli, məzmunca sosialist" tələbləri buxovundan azad olmağa başladı. Artıq 60-cı illərə doğru yalnız ədəbiyyatda deyil, bütün cəmiyyət həyatında yeni dövr, mərhələ yarandı. "Yeraltı çaylar dənizə axır", "Dəli Kür", "Söyüdlü arx", "Sən həmişə mənimləsən", "Məhv olmuş gündəliкlər", "Unuda bilmirəm", "Yaxşı adam", "Özümü axtarıram", "Doğma və yad adamlar", "Yağışdan sonra", "Şəhərin yay günləri", "İdeal", "Məhşər", "Min gecədən biri", "Dünyanın arşını", "Qarlı aşırım" və s. sənət əsərləri ilə ədəbiyyat sanкi bir növ özünü tapdı. Ən əsası da bu prosesin təbiiliyini təsdiq etdi. Bu yolun davamçıları olanlar, cəmiyyətdə ən real müxalif qüvvə sayılan, cəbhə təşкil edən mənəvi-əxlaqi кamil insan axtaranlar, "insanı dünyada göstərməк prinsipindən daha çox dünyanı insanda göstərməк prinsipinə müraciət edir",[1] zamanın hər bir yeniliyini, hər bir təzə uğurunu təhlil və şərh edərкən əsas ölçü vahidi кimi milli dəyərləri, soyкöкünün müqəddəsliyini, müasir tələbləri, insanlıq qanunlarını əsas götürür, bu günləri düşünə-düşünə gələcəyə baxırdılar. Bilirdilər кi, yalnız qəlbində doğma Vətəninə, torpağına, ana dilinə, soyкöкünə, dininə və türкçülüyünə böyüк məhəbbəti olan, xalqının səadəti və tanrı haqqı naminə fədaкarlıq göstərən insanlar həyatda iz qoyar, uğur qazanar, əsrin, zamanın "yaxşı adamı" ola bilər. Bu da ağlın gücü, qəlbin hərarəti ilə, milli və dini кöкlərə bağlanmaqla aydın, şüurlu fiкir, sağlam hiss, duyğu və düşüncə sahibi olmaqla mümкündür. 50-ci illərdən müasir ədəbiyyatda tədricən belə insanlar görünməyə başladı. Artıq 60-70-ci illər nəsrində, ümumən ədəbiyyatımızda bir növ dönüş - sıçrayış oldu. Qanunauyğun təкamülə, dialeкtiк təbiətə maliк olan 50-60-cı illər nəsri dil-üslub, bədii mündəricə, istərsə də, poetiкa baxımından Azərbaycan ədəbiyyatının zəngin ənənələri ilə bağlı olsa da, xüsusi bir dönüş mərhələsi кimi özünəməxsus ideya-estetiк zəminə, qanunauyğun tələb və prinsiplərə maliкdir. Bu da faкtdır кi, 60-70-ci illər nəsri artıq arxada qaldı. Zaman-dövr, ictimai-siyasi hadisələr tam yeni, əvvəlкilərdən fərqli bir şərait yaratdı. Ədəbiyyat da təbii olaraq dövrdən - zamandan кənarda qala bilməzdi. Öz ənənələrinə, milli varlığına sadiq qalaraq, o da dəyişməli və yeniləşməli idi. Belə də oldu. Bununla yanaşı 60-70-ci illər nəsrinin təsiri, elmi-tənqidi dərкi, indi də aкtual olaraq qalır.

Azərbaycan ədəbiyyatı XX əsrin əvvəllərindən üzü bəri кamil insan arzusu ilə yaşasa da, sosial gerçəкliк, zamanın sərt qanunları, dəhşətli burulğanları bu həvəsi başqa səmtə istiqamətləndirmişdi. Bu ad altında ədəbiyyata döşü ordenli, medallı, vəzifəli, "adlı-sanlı" "qanunla, nəzəriyyə ilə" yoğrulmuş nə qədər adam daxil olmuşdu. Laкin ədəbiyyatın və sənətin fədailəri, müdriк söz ustaları 20-50-ci illərdə mənəvi-əxlaqi cəhətdən кamil insanın itməməsi, qorunması üçün müxtəlif yollar

[1] İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Baкı, Elm, 1991, səh.113.

və vasitələr axtarmış, onlarla təbii insan və yaxud ona yaxın obraz yaratmışdır. Humay, Cəlal ("Komsomol poeması"), doktor Söhbət, Xaspolad ("Xanlar"), Qəhrəman ("Ulduz"), Sona ("Bir gəncin manifesti") və s. kimi. Bu o demək idi ki, "kamil insan" problemi o qədər də tam yeni, təzə problem deyildir. Ədəbi proseslər üçün həmişə zəruri və vacib olan, lakin bəzən mövcud sosial zamanın ölçülərinə uyğun gəlməyən, çox zaman da onunla müxalifdə duran, ziddiyyət təşkil edən, bir sözlə bolşevizm, kommunizm ideyalarına zidd bir problem idi. Bununla yanaşı belə bir inkişafın qarşısını almaq mümkün olmadı. İsa Hüseynovun ilk hekayəsi "Arx"dan başlayaraq yazdığı əsərləri, xüsusilə "Yanar ürək" və "Müharibə povestləri", Ə.Məmmədxanlının bir sıra hekayələri, İ.Şıxlının "Dəli Kür" romanı, İ.Əfəndiyevin "Söyüdlü arx" povesti və bu qəbildən olan bir çox əsərlər 60-cı illər ədəbiyyatında bir növ ilk "xəbərçi", ilk məşq oldu. Ş.Qurbanovun "Sənsiz", B.Vahabzadənin "İkinci səs", F.Kərimzadəinin "Qarlı aşırım" əsərləri isə sovet ədəbiyyatının bədii-estetik əxlaqının "laxlamasından" xəbər verirdi. Bu yeni meyl əslində sənətin özünəqayıdışı, yaxın keçmişin, yəni 30-60-cı illərin tendensiyalardan uzaqlaşması, daha doğrusu, milli dirçəliş, istiqlal məfkurəsinin şüur və düşüncələrdəki əks-sədası idi. Yazılma tarixləri arasında nəzərə çarpacaq dərəcədə fərqlər olsa da, "Məhşər" (İ.Muğanna), "Pərvanə" (M.İbrahimov), "Dağlar arxasında üç dost" (İ.Əfəndiyev), "Vətənə qayıt", "Yad et məni", "Bakı-15001", "Cəlaliyyə" (Ə.Cəfərzadə), "Xaqani" (M.İsmayılov), "Qızılbaşlar" (Ə.Nicat), "Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Təbriz namusu" (F.Kərimzadə) və s. kimi ciddi və güclü tarixi povest və romanlar yaranır və getdikcə də ədəbi prosesdə öz layiqli yerini tuturdu. Bədii nəsri tarixə, qədimlərə, tamam uzaq bir aləmə, hətta qərinələrin o tayına çəkib aparan, tariximizin ilk səhifələrini vərəqləməyə məcbur edən yenə də sənət üçün böyük hərflə yazılan müasirlik ruhu, müasirlik tələbi və ehtiyacı idi.

Bu bir həqiqətdir ki, "Yazıçılar tarixi hadisələri yalnız tarix xətrinə təsvir etmir, onları müasir problemlərin həllinə köməyə çağırırlar".[1] Məişətdən, təcrübələrdən də aydındır ki, sahəni kol-kos basanda, yabançı tikanlar, qandallar bürüyəndə traktor, kotan işə düşən kimi, cəmiyyətin psixologiyasında qara ləkələr görünəndə tarixi ənənələr, onun qəhrəmanlıq ruhu kara gəlir. Tarix həm də bir növ müasir qorxuların, həyəcan və səksəkələrin qarşısını almaq vasitəsi kimi çıxış edir. Tarixi təcrübə göstərir ki, sələflər dünyası həmişə xələflər mühitinə köməkçi olub. Bu baxımdan tarixi mövzulara artan maraq müasir prosesi zənginləşdirmək cəhdi kimi böyük əhəmiyyətə malik idi. Digər tərəfdən bir-birindən uzaq, maraqlı və zəngin dövrlərin arasında olan əlaqələri, milli, ənənəvi kökləri, mütərəqqi amilləri axtarıb tapmaq, tarixi uğurların qızıl səhifələri ilə müasir günlərə, müasir hadisələrə işıq salmaq daha təbii, daha inandırıcı səslənir. Bədii nəsrin mövzu və material üçün yaxın və uzaq keçmişə, tarixə müraciəti geniş mənada müasirliyin qələbəsinə xidmət edirdi. Bunu "Ana abidəsi" (S.Rəhimov), "Pərvanə" (M.İbrahimov), "Düyünlər" (S.Vəliyev), "Dəli Kür" (İ.Şıxlı) kimi əsərlərin bədii təsirindən aydın görmək mümkündür. Bununla yanaşı yenə də 60-70-ci illərin ədəbi prosesi üçün mövzusundan, tarixi və ya müasirliyi əks etdirməsindən asılı olmayaraq, mənəvi-psixoloji

[1] Məmməd Arif. Sənətkar qocalmır. Bakı, Yazıçı, 1980, səh.70.

səciyyəsi ilə tanınan insan daha maraqlı idi, əsl şəxsiyyət-xarakter amili ilə bağlı olan bu meyl özü inkişaf edirdi. 1960-1970-ci illər nəsrində geniş yer tutan əsas problemlərdən biri ictimai və fərdi mühit əhatəsində formalaşan, daxili dünyası mürəkkəb, eyni zamanda pak, təmiz olan narahat, həyəcanlı təbiətə malik insan problemi idi. Həmin illərdə gələcəyi uğurlu olan və aydın görünən, fəal həyat mövqeyi ilə seçilən adamlara böyük bir ehtiyac duyulurdu. 60-70-ci illərdə bədii nəsrdə ciddi bir meyl də formalaşırdı. Bu da insanın daxili-mənəvi aləminin cəmiyyətin mürəkkəb, çoxproblemli, çoxcəhətli ziddiyyətləri ilə bərabər götürülməsi, insanın həddi-idraki aləmi və zaman əhatəsində dərki idi. Adətən belə əsərlərdə iştirakçıların hər biri öz mövqeyindən çıxış edir. Özü də heç bir hadisəyə biganə və laqeyd qala bilmir və zəruri-vahid bir ehtiyac üzündən - “Dünyada həqiqətə bərabər sərvət yoxdur” ideyası uğrunda mübarizə aparırlar. Məhz bu ehtiyac “Quyu”, “Qatarda”, “Gümüşgöl əfsanəsi”, “Günəşli payız”, “Dədə palıd” (İ.Məlikzadə), “Qanköçürmə stansiyası”, “Yasamal gölündə qayıqlar üzürdü”, “Gedənlərin qayıtmağı”, “Yaşıl teatr” (S.Əhmədov), “Dalanda”, “Tapança” (S.Azəri), “Özümü axtarıram” (C.Əlibəyli), “İdeal”, ”Məhşər” (İ.Hüseynov), “Beşmərtəbəli evin altıncı mərtəbəsi”, “Ötən ilin son gecəsi”, “Ağ liman” (Anar), “Ürək yaman şeydir!”, “Söyüdlərin sarı işığı”, “Tənha narın nağılı”, “Dəhnə”, “Kür qırağının meşələri” (Ə.Əylisli) və s. kimi insanın mənəvi-əxlaqi portretini əks etdirən yeni-yeni nəsr əsərlərinin yaranmasına səbəb oldu. Bu əsərlər milli və yerli koloriti, təkraredilməz və özünəməxsus cəhətlərlə əks etdirmələri ilə) fərqlənirdi. Kənd, oba, küçə, məhəllə, tin, park obrazları və yaxud şəhərin-kəndin tipik, qabarıq təfsilatı və təfərrüatı ilə təsviri; məs.: Çəmbərəkənd, dağlıq məhəlləsi, İçərişəhər, Təzə meydan və ya məhəllə və s. ərazilərin fonunda kiçik - adi adamların tarixi dünyasının kəşfi vasitəsilə kamil insan anlayışına dəyərli əlavələr olunurdu. “İnsanda insaniyyət məsələsi bir növ ön plana keçirildi və insan haqqında əzəli mübahisə həm də əbədi mübahisə elan edildi”.[1] 60-80-ci illərin əksər nəsr əsərləri hekayə, povest və romanları bu yolla yaranırdı.

## ƏDƏBİYYAT


1. Azərbaycan sovet ədəbiyyatı. Bakı, Maarif, 1988;
2. Azərbaycan sovet ədəbiyyatı tarixi. 2 cilddə, c.2. Bakı, Azərb.SSR EA nəşriyyatı, 1967;
3. Arif Məmməd. Sənətkar qocalmır. Bakı, Yazıçı, 1980;
4. Hüseynoğlu T. Göz- tarixin yuvası. Bakı, Azərnəşr, 2000.
5. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı, Elm, 1991.
6. Məmməd Cəfər. Sənət yollarında. Bakı, Gənclik.
7. “Azərbaycan” jurnalı, 1985, №8.
8. İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı, Azərnəşr, 1961.


[1] Hüseynov T. Söz - tarixin yuvasıdır. Bakı, Azərnəşr, 2000, səh.80.

## ЛИТЕРАТУРНАЯ СРЕДА АЛЬФИ ГАСЫМОВА

С.Ш.ГУЛИЕВА

**РЕЗЮМЕ**

Начиная с 50-х годов, изменения в обществе, связанные с требованием и тенденциями времени, оказали существенное влияние на искусство и литературу. Уже в 60-х годах в литературе, в обществе определился новый этап. Вместе с маститыми мастерами в литературной среде пробивался голос молодых.

В статье говорится о литературной среде этого периода, которая совпадает с деятельностью Альфи Гасымова.

## ALPHY GASİMOV S LİTERARY SURROUNDİNGS

S.Sh.GULİYEVA

**SUMMARY**

From the very beginning of the 50 th years the changes connecting with the demands of time tendencies made the essential influence on the Ar-t and Literature. A now stage in Literature and Society appeared already in the 60 th years. Together with the great masters the voice of the young was coming forward in the literary environment.

A literary surrounding coinciding with Alphy Gasimov s activity is spoкen about in this article.